

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# YAXŞILARDAN XALİ OLMAYAN...

## Dünya ilə dərdləşmə

**Tez-tez eşitdiyim sözlərdən biri də "dünya yaxşılardan xali deyil!" deyimidi. Bilmirəm, bunu kim, harda, nə üçün deyib, amma bu deyimin içində çox böyük mənalar var. Həmin mənaları hərə öz bildiyi, öz istəyinə uyğun şəkildə, zaman-zaman yozur və bu gün də yozmaqdadı. Mən bu yozumların heç birinə qarşı deyiləm və heç ağlımın ucundan da bunu keçirmirəm. Ona görə ki, yaşadığım dünyada çəkdiyim bütün yüklərin bir az yüngülləşməsi, bəzilərinin çiynimdən götürülməsi məqamında mənim də yanımda dayanan, mənə də əl uzadan, mənə də kömək duranlar olubdu, elə bu gün də var. Təbii ki, onların arasında tələbə yoldaşlarım, dostlarım və bir də məqsədləri, niyyətləri savab olan adamlar əsas yeri tuturlar. Və mən də öz növbəmdə onların haqqını bacardığım kimi dəyərləndirməyi heç vaxt yadımdan çıxarmıram, unutmuram...**

Bəli, yaxşılardan xali olmayan bu dünyada özəl həyatıma işıq tək daxil olmuş və çox təəssüf ki, indi Tanrı dəgahına qovuşmuş dostlarım da olub. Onların arasında Dilavər... Rafiq... Vahid... Vaqif... Şirxan... Ələsgər... Polad... Mən bu insanların hər birinin ruhu qarşısında günündən, saatından asılı olmadan hər an ehtiramla baş əyir, ürəyimdən bir "Allah rəhmət eləsin" duasını təkrar-təkrar keçirirəm. Belə baxanda bu duanın və yaxud onların adlarının anılmasının bəlkə də nə qədər savab və yaxud önəmli olması heç bir dəyəri ifadə etməyə bilər. Amma, mənə görə, anılmaq sözün bütün mənalarında ananın qəlbində, xatırlayanın ürəyində yaşamaq deməkdir. Yəni mən haqqa qovuşan dostlarımın bu gün də mənimlə bir sırada olduqlarına, tam səmimiyyətimlə deyirəm ki, inanıram, əminəm! Və...

Hə, dost itirmək, bu itkinin acısını yaşamaq heç də asan deyil. Əslində bu güvənin, etibarın, sədaqətin, sirdaşlığın hardasa azalmasıdı, seyrəlməsidi. Məhz bu səbəbdən mən itirdiyim mərhum dostlarımla necə kiçildiyimi, necə təkləndiyimi, necə güvənsiz qaldığımı açıq-aşkar hiss edirəm. Elə bu hissetmə də məni özünə daha çox çəkir, xəyallara daha çox bağlayır. Hətta bəzən hamıdan, hər kəsdən təcrid edir. Onda ümidim dostlarla bağlı şəkillərə, xatirələrə, bir də yazmaq bacarığıma qalır. Daha doğrusu, onlara olan o kədərli, amma mənə azacıq rahatlıq gətirən duyğuları şeirləşdirməyə... Bilmirəm, bu yazı-pozum necə alınır, amma mən bacardığım kimi, kimsəni yamsılamadan o duyğuları kağıza köçürürəm. Və yazıram ki:

**İlahi, kədərimi
Işığa, necə tutum?
Səbrimin son damlasın -
Qaşığa, necə tutum?**

**Ötüb keçdi bir çərək
Daş olaydım mən gərək...
İradımı de, ürək -
Aşiqə, necə tutum...**

**Qalmayıb yer ta şəklik
Günümə hakim təklik...
Sanki uçubdu kəklik -
Daşlığa, necə tutum...**

**Kimdi istəyən axı
İçimdəki son ahı!
Sevgimdə mən günahı -
Başlığa, necə tutum?**

Misralardan da göründüyü kimi, irad tutmaq, münasibət çözmək heç də asan deyil. Çünki anlayan, dəyər verən qıtlığı var. Elə bil ki, cəmiyyət kasadlaşıb, elə bil ki insanlar manqurtlaşmağa, yalnız özlərini, çevrələrini və öz ciblərini düşünməklə məşğuldular. Ona görə də haqlar tapdalanır... Ona görə də insanlıq cılızlaşır, söz havada qalır. Hətta ən yaxşı söz belə divara dəyib qayıdır!.. Necə deyərlər, bu mənzərə duyğusal, həqiqət axtaran, həqiqət xəstəsi olan adamlara güllə tək dəyir. Onları öz vücudlarının içərisində qovurur... Və bir də təəssüf ki, dediyim o məqamların da cılızlaşmaya, manqurtlaşamaya iynə ucu boyda olsa təsiri olmur. Arazı aşığından, Kürü topuğundan hesab edənlər atlarını bildikləri kimi çapır, bildiklərini babalarına da vermirlər. Biz isə...

Doğrudan da gerçəyi qəbul etmək insan işidi, adamın vəzifəsidi, adamlığın borcudu. Neyləyək ki, mənim xüsusi vurğuladığım insanlıq, adamlıq indi özü öz hayındadı. Mən də onun gününü ağlamağa çox uğursuz cəhdlər edirəm - küləklə vuruşan kimi! Nə isə...

İndinin özündə də mən əlimdəki ipucunu buraxmadan, ardınca getdiyim adamlığın, insanlığın bir gün xilas olacağına, özünə dönüb böyüklüyünü təsdiq edəcəyinə inamımı qoruyub saxlayıram. Həmin inama da söykənərək yazdığım könül pıçıltılarının mayasında nə qədər qəm, kədər olmasından asılı olmayaraq, sevginin qalib gələcəyinə inamı bir an da olsun unutmuram. Hətta üzümü Allaha tutub yazıram ki:

**Allah, hikkəsin toplayıb
Həsrət mənə tərs-tərs baxdı...
Sümüklərim də göynəyib -
Ruhumun üşüyən vaxtı...**

**Kipriklərim sanki çal duz
Vağanıyıb dərə, yal, düz...
Yuxuda gördüyüm sal buz -
Əriyib içimdən axdı...**

**Xəyalım bələk olubdu
Tay canım ələk olubdu...
Qələmi lələk olubdu -
Mənə yazanda bu baxtı...**

**Hər gün içdəki talanda
Matdı doğru da, yalanda!
Tükdən asılı qalanda -
Təsəllimdi, şair taxtı!..**

İndi gördünüzmü özümü necə aldadıram, necə özümə toxtaqlıq verirəm. Hətta bu təsəllilərlə, bu özümü aldatmaqlarla qürrələnirəm. Belə məqamda özümün özümə acımam da olur, gülməyim də. Görün dünyanın, zamanın hansı bir nöqtəsinə gəlib çıxmışıq? Və bu nöqtədə də dayanıb nələrəsə söykənib, nələrdənsə ilhamlanıb ayaqda qalırıq. Əgər bu, gerçəkdən ayaqda olmaqdısa.

Elə bu yerdəcə həmin duyğulara uyğun gələn və əslində o duyğuların diqtəsi olan bir şeirim yadıma düşdü:

**Mən seçmədim özü tapdı, bəyəndi
Ürəyimin düz əyininə gəldi dərd...
Göbəyini mənlə kəsdi həsrətin -
Nübarın da elə özü dərdi, dərd!**

**Mən dil bilən, o da üzü üz görmüş
Neçə çəhlim, neçə cığır, iz görmüş...
Lap məni də, sayın daha siz görmüş -
Sıralayır gecə, gündüz dərdi dərd!**

**Olmasam da o əkində, biçində
Sirr deyil ki, dünya mənim üçün də!
Bilirəm ki, nə çəkirəm içimdə -
Ürəyimi hər an sıxan əldi dərd!..**

***

Bu gün qayğı, nostalji duyğular və bir də qapı arasında qalmış ümidin ətəyindən tutmağa, işığına sığınmağa nə qədər cəhd etsəm də alınmır ki, alınmır. Elə bil hər şey mənimlə düşmənçiliyə dayanıb. Əlimi uzadıb götürmək istədiyim də öz əlimlə qoyduğum yerdə tapılmır. Əlini sıxmaq istədiyim adamın əli də görünməz olur. Və bütün bunlar məni həm düşündürür, həm üşəndirir. Necə deyərlər, özüm-özümdən xoflanıram - həm ağıl baxımından, həm də kənardan mənə göz qoyanların verəcəyi qiymət baxımından...

Siz bu yazının anlaşılmaz bir not üzərinə kökləndiyini yəqin ki, hiss edirsiniz. İnanın ki, bu mənim istəyimlə məqsədli şəkildə belə alınmır. Elə bil ki, içimə çökmüş o ümidsizlik yavaş-yavaş məni özünə təslim edir. Hətta, hərdən mənə elə gəlir ki, son mənzil, son dayanacaq görünür. Elə yerimdən tərpənib addım atsam, bitəcək hər şey...

Kimsə məni qınaya bilər. Və mən də bu qınaqdan qaçmıram. Onun haqlı olduğuna şübhə də etmirəm. Amma neyləyim ki, gördüklərim, yaşadıqlarım bir həyat gerçəyidi. O gerçəyin də qarşısında ya susasan, ya da boynubükük dayanasan. Seçim etmək haqqım ola-ola mən misralara üstünlük verirəm. İçimdəki sızıltının ifadəsi olan misralara. Və yazıram:

**Mən Tanrı dərgahına
Üzü qara gedirəm...
Ürəyimi, ruhumu -
Verib yara, gedirəm...**

**Keçsə də gün ahlarla
Alınmış cinahlarla...
Bu qədər günahlarla -
Demə, hara gedirəm?**

**Ürəyimi oyuram
Nəsimi tək soyuram...
Səni burda qoyuram -
Özüm hara, gedirəm!..**

**Tutulubdu göy nədən?
Tək qalanam köhnədən!..
Ürəyini göynədən -
Mənəm yara, gedirəm!..**

Hər halda, bu misralar mənim ürəyimə, duyğularıma səpilmiş su da sayıla bilər. Özü də kipriklərimin ucundakı duzlu su...

Hə, bütün hallarda ruhum, duyğularım ən azından Sənin tərəfindən qəbul edilib, səni ovutmaq üçün anlaşması məncə çox müsbət bir dəyərdi. Fikirimi bir az da açıqlasam, onda bilərsiniz ki, nə demək istəyirəm. Yəni insanın duyğusu, ruhu onun özünü ovuda bilirsə, onunla dil tapa bilirsə, bir səngərdə dayanırsa, bu hardasa yıxılmaqdan qurtulmaqdı... əl uzadıb bir budaqdan tutmaqdı... Elə həmin o budaqdan yapışıb ayaqda durmaq istəyənin nümayəndəsi kimi özüm gözünüzün önündəyəm. Elə bilirəm ki, gözünüzü yağır etməmişəm, bezdirməmişəm sizi. Və deməli, mənim sizə, sizin də mənə üz tutmağa, deməyə sözünüz var hələ. O sözlərdən biri də həyatıma, ömrümə həsr etdiyim bu şeirdi:

**Hər an səninçün yanır
Çıraq ömrüm, şam ömrüm...
Nəfəsin bələnəndə -
Olur bütöv - tam ömrüm...**

**Təməlisən dözümün
Mənasısan sözümün...
Sən ol, nuru gözümün -
Alım səndən kam, ömrüm!**

**Görəndən qəmin üzün
Yerə gəlibdi dizin...
Ot bitirir tay izin -
Həsrət dolu cam, ömrüm...**

**Sən ala bilmədin öc
Bəxtini qınama heç...
Gəldiyin kimi də köç -
Bu dünyadan xam, ömrüm!**

***

Düşünürəm ki, yaxşıların hələ tükənmədiyi bu dünyada ümidsiz qalmaq hardasa günahdı. Çünki bir işıq yanırsa, bir ocaq közərirsə, bir yaxşı qalırsa, deməli, hələ hər şey bitməyib.

Ümidin sonda öldüyünü çox deyiblər, çox yazıblar. Mən də demişəm, yazmışam. Elə bu yazının sonluğuna da həmin deyim tam uyğun gəlir. Və...

İnciməyin, hardasa sizə mənfi yüklər, mənfi çalarlar yaşatdığım üçün, günahkar olduğumu başa düşürəm. Amma neyləyim ki, yazmaya da bilmirəm. Və könlünüzü öz könlümlə həmahəng etmək üçün misralara üz tutuarm, fikirlərimi şeirlə bitirmək və sizə gələcək günlərdə xoş arzularla baş-başa olmağı diləyirəm. İstəyirəm ki, hər kəs gözünü yoldan sevinclə yığsın... hər kəs kipriklərini sevinclə silsin. Və bir də istəyirəm ki, "gəl!" deyim.

**Yorulmuş ürəyimin
Dözümünü gətir, gəl...
Qor olmuş diləyimin -
Çözümünü götür, gəl...**

**Dizim hər gün bükülür
İçim qat-qat sökülür...
Göyə dəyib, tökülür -
Öz ünümü götür, gəl...**

**Gözüm yolu geyib ta
Gözümü yol yeyib ta...
Sən Tanrıya deyib ta -
Özülümü götür, gəl...**

**Daşam, ağacam, otam
Bizi yaradan O tam!
Sənsiz buzlayır odam -
Köz ömrünü götür, gəl!..**

Bəli, hələki bura qədər. Mən "gəl!" dedim, siz də "gəl!" deməyi unutmayın. Onsuz da yola salmaq həmişə bizimlədi!..